## İdman xəbərləri

# İdmançılarımız üçün uğurlu olub

Yola saldığımız 2019-cu il Qəbələnin idmançıları üçün də uğurlu olub.

Bu barədə respublika və beynəlxalq səviyyəli yarışlarda fərqlənən qəbələli idmançıların mükafatlandırılması münasibətilə dekabrın 28-də Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə məlumat verilib.

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən idarənin rəisi Fəxri Soltanov ölkəmizdə idmanın inkişafına göstərilən yüksək dövlət qayğısından söz açıb, 2019-cu ildə Qəbələ idmançılarının qazandıqları uğurlardan bəhs edib.



Tədbirin sonunda respublika və beynəlxalq səviyyəli yarışlarda fərqlənən idmançılara fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

**"Qəbələ"**

# Komandamız hazırlığa başladı

"Qəbələ" 2019-2020-ci illər mövsümünün ikinci yarısının hazırlığına start verib. Azərbaycan kubokunun 1/4 final mərhələsinin oyunlarından sonra istirahətə yollanan komandamız Bakıda bir araya gəlib. "Qəbələ" futbolçuları Bakı Olimpiya Stadionunda hazırlıq keçiblər.

# Taekvandoçularımızdan qızıl medal

Taekvondo üzrə Azərbaycan çempionatı və respublika birinciliyinə yekun vurulub. Beş gün davam edən yarışda "Qəbələ" İdman Klubunun təmsilçiləri də dayanq üzərinə çıxıblar.

Yarışın son günü böyüklər mükafatlar uğrunda mübarizə aparıb. "Qəbələ"nin iki taekvondoçusu günü çempion titulu ilə başa vurub. Cavad Ağayev (68 kq) və Məhəmməd Məmmədov (80 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medala yiyələniblər.

Fəxri kürsünün ən yüksək pilləsinə qalxan bu iki taekvondoçumuzdan başqa, daha bir təmsilçimiz yarışda medal qazanıb. 73 kq çəki dərəcəsində mübarizə apa-



ran gənclərin respublika birinciliyində Ümid İsmayılov 3-cü yeri tutaraq bürünc mükafata sahib çıxıb.

# Həmyerlimizin 140 illiyi münasibətilə yeni il təqvimi hazırlanıb

Həmyerlimiz İbrahim bəy Musabəyovun anadan olmasaının 140 illiyi münasibətilə 2020-ci ilin təqvimi hazırlanmışdır.

Təqvimi hazırlayan Nic qəsəbə sakini, təqaüdçü müəllim Əhməd Məmmədli İbrahim bəy Musabəyovun həyat və yaradıcılığına işıq salmış, maarifçi həmyerlimizin xalqımıza daha yaxından tanıdılması ilə bağlı zəngin məlumatlar çap etdirmişdir.

Tərtibçinin başlıca məqsədlərindən biri də bu tarixi şəxsiyyətin zəngin irsini məktəblilərə öyrətmək və təbliğ etməkdir. Çünki ədibin şəxsiyyəti, fəaliyyəti və keçdiyi keçməkeşli həyat yolu böyk bir məktəbdir və bu məktəbdən faydalanmaq, lazımınca bəhrələnmək hər bir qəbələli gəncin tarixi keçmişimizə hörmətlə yanaşmasını, xalqının maariflənməsi üçün ömrünü şam kimi əridən fədakar Vətən oğullarını daim xatırlamalarını, onların həyat və fəaliyyətlərini ehtiramla anmalarını şərtləndirir.

Təqvimdə xalqımızın parlaq şəxsiyyəti İbrahim bəy Musabəyovun ömrünün müxtəlif anları işıqlandırılmışdır.

**"Qəbələ"**

# 01.01.2020-ci il tarixdən qüvvəyə minəcək Vergi Məcəlləsinə edilən dəyişikliklərin məqsədləri üzrə izah materialı

**Məqsəd 1. Ədalətli rəqabətin şərti olan bərabər və şəffaf fiskal mühitin təmin edilməsi:**

***1.1. Əmtəəsiz əməliyyatlar aparan vergi ödəyicilərinə və riskli vergi ödəyicilərinə qarşı mübarizənin aparılması və nəzarətin gücləndirilməsi:***

Bu istiqamət əmtəəsiz və riskli əməliyyatlar apararaq vergidən yayınan vergi ödəyicilərinin fəaliyyətinin qarşısının alınması, bu cür əməliyyatların vergiyə cəlb edilməsi ilə bağlı kompleks tədbirləri, habelə riskli vergi ödəyicilərinin meyarlarının müəyyən edilməsi ilə bağlı hüquqi bazanın yaradılmasını və onlara qarşı mübarizədə tətbiq ediləcək alətləri özündə əks etdirən dəyişikliklərdən ibarətdir.

1 yanvar 2020-ci il tarixdən Vergi Məcəlləsinə əmtəəsiz əməliyyat və riskli vergi ödəyicisi anlayışları gətirilmişdi. Belə ki, vergi nəzarəti tədbiri zamanı aşkarlanan, başqa əməliyyatı pərdələmək məqsədilə aparılan və faktiki olaraq mallar, işlər və xidmətlər təqdim edilmədən mənfəət əldə etmək məqsədilə rəsmiləşdirilən əməliyyatlar - əmtəəsiz əməliyyat sayılır. Eyni zamanda Nazirlər Kabinetinin təsdiq etdiyi meyarlara cavab verən, o cümlədən əmtəəsiz və (və ya) riskli əməliyyatlar aparan şəxslər riskli vergi ödəyicisi hesab ediləcəklər.

Nazirlər Kabineti tərəfindən müvafiq meyarlar təsdiq edildikdən sonra riskli vergi ödəyicisinin meyarları, habelə vergi ödəyicisinin riskli vergi ödəyicisi olması, habelə riskli vergi ödəyiciləri siyahısından çıxarılması barədə qərar qəbul edilmə mexanizmləri barədə ətraflı məlumat veriləcəkdir.;

Bu məqsədlə Vergi Məcəlləsində aşağıdakı istiqamətdə dəyişikliklər edilmişdir:

✓Əmtəəsiz əməliyyatlar üzrə yaranan vergi öhdəliklərinin benefisiar şəxsin (faydalanan şəxsin) üzərinə qoyulması;

✓Əmtəəsiz əməliyyatlar çərçivəsində əldə edilmiş sənədlərin gəlirdən çıxılan xərcləri təsdiq edən sənəd hesab edilməməsi;

✓Əmtəəsiz və riskli əməliyyatlar çərçivəsində aparılan əməliyyatlar üzrə ödənilmiş ƏDV-nin əvəzləşdirilməməsi.

✓Riskli vergi ödəyiciləri barədə məlumatın kommersiya və (və ya) vergi sirri olmayan məlumat hesab edilməsi;

✓Vergi ödəyicisi riskli vergi ödəyicisi meyarına uyğun gəldiyi halda bu halın onda növbədənkənar səyyar vergi yoxlamasının və operativ vergi nəzarəti tədbirinin aparılmasına əsas kimi müəyyən olunması;

✓Vergi ödəyicisi riskli vergi ödəyicisi olduğu halda vergi orqanının vergini onun ödənildiyi tarixədək hesablamaq hüququnun müəyyən edilməsi;

✓Riskli vergi ödəyicisinə münasibətdə, vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılmaması;

✓Riskli vergi ödəyicilərinə münasibətdə artıq ödənilmiş məbləğlərin vergi ödəyicisinin fəaliyyəti üzrə vergi nəzarəti tədbirləri tam başa çatdıqdan sonra qaytarılması;

**1.2. Vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirilməsi:**

✓Sabit qəbz almaqla fəaliyyət göstərən fiziki şəxsləri müvafiq qəbz əldə edilmədən işlərin yerinə yetirilməsinə cəlb edilməsinə görə vergi orqanında uçotda olan sifarişçiyə hər bir belə şəxs üzrə maliyyə sanksiyasının tətbiq edilməsi;

**(Ardı gələn sayımızda).**

# Kiçik elektrik poçt maşını istehsal ediləcək

Tam elektriklə işləyən kiçik elektrik sərnişin maşınlarının istehsalı ideyası çoxdan mövcuddur. Belə ki, "Nissan", "Peugeot", "Renault" və "Citroen" kimi avtomobil brendlərinin şəhərlərdə havanın çirklənməsinin qarşısını almaq üçün yeni layihələri artıq təqdim olunub.

Bu istiqamətdə ən uğurlu sayılan layihə velosipedə bənzəyən və elektriklə işləyən EAVan kiçik nəqliyyat vasitəsinin istehsalıdır. Oksford Universitetində yerləşən EAV startapının hazırladığı bu maşınlar




mexaniki-elektrik sistemi və yüngül çəkisi ilə fərqlənir.

Cəmi 250 vatt gücündə motoru olan EAVan maşınları saatda 30 kilometr sürətlə bir cərəyan yüklənməsi hesabına 90 kilometr məsafə qət edə bilir.

Sürəti artırmaq üçün velosipeddə olduğu kimi, pedallarla çarxı fırlatmaq lazımdır. Yeni maşının batareyasını yükləmək üçün onun 13 amper olan rozetkasını 240 volt cərəyana qoşmaq kifayətdir.




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2020-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir

İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (keçmiş kənd) sakini **Mabudov Əziz Abduləziz oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 607 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 20 noyabr 2017-ci il tarixində **Əhmədov Ruslan Fəxrəddin oğluna** verilmiş RX seriyalı 1160807 nömrəli (reyestr nömrəsi 406013002484, qeydiyyat nömrəsi 1917008361), **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 20 noyabr 2017-ci ildə **Əhmədov Ruslan Fəxrəddin oğluna** verilmiş RX seriyalı 1160809 nömrəli (reyestr nömrəsi 406013002483, qeydiyyat nömrəsi 1917008362) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.